**AUDİT 2023, 4 (42), səh. 118-125.**
**AUDIT 2023, 4 (42), pp. 118-125.**
**АУДИТ 2023, 4 (42), стр. 118-125.**

**DOI: 10.59610/bbu4.2023.4.12**

*Həsənova Şəlalə Şakir qızı,*
*hüquq üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Biznes Universiteti*
*E-mail:shelale.hasanova@gmail.com*
*© Həsənova Ş.Ş., 2023*

**UOT - 342.56**

# AZƏRBAYCAN RESPUBLİKASININ "MƏHKƏMƏLƏR VƏ HAKİMLƏR HAQQINDA" QANUNUNUN BƏZİ MÜDDƏALARININ TƏKMİLLƏŞDİRİLMƏSİNƏ DAİR MÜLAHİZƏLƏR

## X Ü L AS Ə

**Tədqiqatın məqsədi** – Azərbaycan Respublikasının "Məhkəmələr və hakimlər haqqında" Qanununun bir sıra müddəalarının təkmilləşdirilməsi istiqamətində konkret qanunvericilik təklifləri işləyib hazırlamaqdır.

**Tədqiqatın metodologiyası** – cari qanuna tənqidi yanaşma, sistemli təhlil, müqayisəli hüquqşünaslıq kimi metodların məcmusundan ibarətdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – ondan ibarətdir ki, onun məzmunundan Azərbaycan Respublikasının Milli Məclisi istifadə edərək cari qanunvericiliyin inkişafına nail ola bilər.

**Tədqiqatın nəticələri** – Azərbaycan Respublikasının "Məhkəmələr və hakimlər haqqında" Qanununa əlavə edilməsi üçün hazırlanmış yeni modellərindən və təklif edilən dəyişikliklərin yeni redaksiyalarından ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – tədqiqatın orijinallığı ondan ibarətdir ki, bu məqalə müəllifin özünə məxsus olan fikirlərindən ibarətdir və həmin fikirlər daha əvvəllər heç yerdə çap edilməmişdir. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, onun məzmununda irəli sürülən qanunvericilik təklifləri Azərbaycanın hüquq ictimaiyyətinə ilk dəfə olaraq təqdim edilir.

**Açar sözlər:** məhkəmə hakimiyyəti, qanun, müddəalar, təhlil, təkmilləşdirilmə, təkliflər, arqumentlər.

## G İ R İ Ş

Hakimiyyətlərin bölgüsü elə bir siyasi-hüquqi təminin təməl ideyasıdır ki, bu təlimə əsasən, dövlət hakimiyyəti bir-birindən asılı olmayan üç qol arasında, yəni qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və məhkəmə hakimiyyəti arasında bölüşdürülmüş olmalıdır [3, s. 16; 4, s. 14; 5, s. 57]. Müxtəlif instansiyalı məhkəmələrin fəaliyyətinin və bu fəaliyyəti nizamlayan qanunların elm adamları tərəfindən daimi təftişinin böyük nəzəri və təcrübi əhəmiyyəti mövcuddur. Məhkəmələr ədalət mühakiməsinin təmsilçiləri olduqları üçün onların fəaliyyətinin effektivliyinə xidmət göstərən elmi araşdırmalar da yekun olaraq ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət edir. Belə elmi araşdırmaların özünün keyfiyyəti isə tədqiqatçılar tərəfindən mövcud təcrübəyə və mövcud qanunlara tənqidi yanaşmanın geniş tət-

AUDİT 2023, 4 (42), səh. 118-125.
AUDIT 2023, 4 (42), pp. 118-125.
АУДИТ 2023, 4 (42), стр. 118-125.

biqindən asılıdır [7; 8; 9; 10]. Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.

Hakimiyyətlərin bölgüsü ideyası hakimiyyətin hər bir qolunun müvafiq orqanlar, qurumlar tərəfindən həyata keçirilməli olması ideyasını da şərtləndirir və bu anlamda, məhkəmə hakimiyyətini məhkəmə orqanları (bura həm birinci instansiya, həm apellyasiya instansiyası, həm kassasiya instansiyası məhkəmələri, o cümlədən konstitusion nəzarət orqanı olan məhkəmə də aiddir) həyata keçirirlər. Məhkəmə hakimiyyətinin özünəməxsus orqanları olduğu kimi, özünəməxsus vasitələri də mövcuddur. Bu vasitələrdən ən əsası məhkəmə icraatı, yaxud mühakimə icraatıdır ki, onun özünün də müxtəlif növlərini fərqləndirmək mümkündür. Məsələn, cinayət mühakimə icraatı, mülki mühakimə icraatı və s. Dövlətin məhkəmə sisteminin quruluşu və müxtəlif mühakimə icraatlarının həyata keçirilməsi qaydaları qanunla müəyyən edilir və tənzim olunur [1, s. 20].

Azərbaycan Respublikasının “Məhkəmələr və hakimlər haqqında” 10 iyun 1997-ci il tarixli Qanununun əsas təyinatı ondan ibarətdir ki, ölkəmizdə ədalət mühakiməsinin realizə olunması təmin edilsin və respublikamızda konstitusion ideyası Əsas Qanunda təsbit edilmiş məhkəmə hakimiyyəti yaradıla və müstəqil bir şəkildə fəaliyyət göstərə bilsin. Hazırkı məqalədə tərəfimizdən Azərbaycan Respublikasının “Məhkəmələr və hakimlər haqqında” Qanununun (bundan sonra – Qanun) bir sıra müddəalarının təkmilləşdirilməsi perspektivlərinə diqqət yetirilmiş, bir sıra konkret qanunverici təklifləri irəli sürülmüş və əsaslandırılmışdır.

**Tədqiqatın əsas məzmunu**

İlk növbədə, müvafiq Qanunun adının təkmilləşdirilməsi və onun yeni redaksiyada *“Məhkəmə quruluşu, məhkəmə sistemi və hakimlərin statusu haqqında”* kimi verilməsi təklif edilir. Belə ki, hazırda baxılan qanunun adında onun məhkəmələrə və hakimlərə aid olması göstərilir. Bununla belə, bu yanaşmada çox ümumilik və hüquqi qeyri-müəyyənlik vardır. Belə ki, əslində, məhkəmələr və hakimlər haqqında normativ müddəalara çox sayda digər normativ hüquqi aktlarda da yer verilir (məsələn, Cinayət-Prosessual Məcəllədə, Mülki-Prosessual Məcəllədə və s. qanunlarda). Deməli, baxılan qanunun adında yalnız onun məhkəmələrə və hakimlərə aid olmasının göstərilməsi kifayət deyildir. Hesab edirik ki, onun adında həmin qanunun əsl mahiyyəti əks olunmalıdır. Baxılan qanunun əsl mahiyyəti isə ondan ibarətdir ki, o, Azərbaycan Respublikasında məhkəmə sistemini, məhkəmələrin quruluşunu və hakimlərin statusunu tənzim edir.

Yeri gəlmişkən, bir sıra xarici dövlətlərin də qanunvericilik təcrübəsi bizim təklifimizin əsaslı olduğunu təsdiq edir. Məsələn, Rusiya Federasiyasında müvafiq qanunlar iki müstəqil qanunla nizamlanır – Rusiya Federasiyasının məhkəmə sistemi haqqında 23 oktyabr 1996-cı il tarixli Federal Konstitusiya Qanunu və Rusiya Federasiyasında hakimlərin statusu haqqında Rusiya Federasiyasının 26 iyun 1992-ci il tarixli Qanunu; Qazaxıstan Respublikasında da müvafiq məsələlər 25 dekabr 2000-ci il tarixli Qazaxıstan Respublikasının məhkəmə sistemi və hakimlərinin statusu haqqında Konstitusiya Qanunu ilə nizamlanır; Ukraynada müvafiq məsələləri nizamlayan 2 iyun 2016-cı il tarixli normativ-hüquqi akt Məhkəmə quruluşu və hakimlərin statusu haqqında Qanun adlanır və s. [6, s. 60].

Daha sonra Qanunun Preambula hissəsinin də təkmilləşdirilmiş aşağıdakı yeni redaksiyada verilməsi təklif edilir: *Bu Qanunun məqsədi Azərbaycan Respublikasında ədalət*

**AUDİT 2023, 4 (42), səh. 118-125.**
**AUDIT 2023, 4 (42), pp. 118-125.**
**АУДИТ 2023, 4 (42), стр. 118-125.**

*mühakiməsini həyata keçirən, hakimiyyətin müstəqil qolu olan məhkəmələrin quruluşunun və sisteminin hüquqi və təşkilati məsələlərini tənzim etmək, o cümlədən, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin daşıyıcıları olan hakimlərin yüksək hüquqi statusunun xüsusiyyətlərini müəyyən etməkdir.*

Hesab edirik ki, müasir dövr üçün Qanunun hazırda qüvvədə olan redaksiyadakı Preambulası artıq aktual deyildir və o, təkmilləşdirilməlidir. Çünki Ümummilli Lider Heydər Əliyevin məhkəmə-hüquq siyasəti nəticəsində və cənab Prezident İlham Əliyevin apardığı uğurlu və ardıcıl məhkəmə-hüquq islahatları nəticəsində Azərbaycan Respublikasında müstəqil məhkəmə hakimiyyəti artıq çoxdan yaranmışdır. Hazırda baxılan sahəvi qanunun məqsədləri müstəqil məhkəmə hakimiyyətinin yaradılması yox, artıq yaradılmış müstəqil məhkəmə hakimiyyətinin öz funksiyalarını səmərəli şəkildə həyata keçirilməsinin təmin edilməsi istiqamətində müəyyən edilməlidir.

Növbəti təklifimiz ondan ibarətdir ki, həmin Qanunun Birinci bölməsinin adı *"Məhkəmə quruluşu"* kimi yeni redaksiyada verilsin.

Hazırda baxılan Qanunun Birinci bölməsi "Məhkəmələr" adlanır, lakin artıq qeyd edildiyi kimi, bu ad çox ümumidir və Bölmənin adı, əslində, onun məzmun və mahiyyətini dəqiq əks etdirməlidir.

Həmçinin təklif edilir ki, həmin Qanunun I fəslinin adı *"Ümumi müddəalar"* kimi yeni redaksiyada verilsin. Hazırda baxılan Qanunun I fəsli "Məhkəmə hakimiyyəti" adlanır, lakin nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının Konstitusiyasının VII Fəsli də məhz "Məhkəmə hakimiyyəti" adlanır. Şübhəsizdir ki, Konstitusiya öz hüquqi qüvvəsinə görə baxılan Qanundan üstündür və Konstitusiyanın VII Fəsli ilə nizamlanan məsələlər baxılan Qanunun I fəsli ilə eyni həcmdə və eyni dərəcədə nizamlana bilməz. Deməli, baxılan Qanunun I fəslinin adı ilə Konstitusiyanın VII Fəslinin adı da üst-üstə düşməməlidir. Baxılan Qanunun I fəslinin məzmununun öyrənilməsi belə deməyə əsas verir ki, həmin fəslin "Ümumi müddəalar" adlandırılması daha məqsədəuyğundur.

Qanunvericiliyin sistemli təhlili bizə belə deməyə əsas verir ki, tədqiq edilən Qanuna aşağıdakı redaksiyada yeni 3-1-ci maddə əlavə edilməlidir:

*Maddə 3-1. Ələt azad iqtisadi zonasında Azərbaycan Respublikasının məhkəmələrinin səlahiyyət hüdudları:*

*Azərbaycan Respublikasının məhkəmələri tərəfindən Ələt azad iqtisadi zonasının mübahisələrin həlli qurumlarının müstəsna yurisdiksiyasına aid edilən məsələlərə baxıla bilməz.*

*Aşağıdakı mübahisələrə tərəflər müqavilə ilə başqa cür razılaşmadıqda, qanunla müəyyən edilən hallar istisna olmaqla, Azərbaycan Respublikasının məhkəmələri tərəfindən baxıla bilməz:*

*Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumunun, inzibati müəssisələrinin, hüquqi şəxslərinin və onların işçilərinin, rezidentlərinin tərəf olduqları mübahisələrə;*

*Ələt azad iqtisadi zonası və onun fəaliyyəti ilə bağlı olan hər hansı digər mübahisəyə.*

*Ələt azad iqtisadi zonasının mübahisələrin həlli qurumları tərəfindən qəbul edilmiş qərarlar icra sənədi hesab edilir. Həmin qərarlar Azərbaycan Respublikasının apellyasiya məhkəmələri (qurumları) istisna olmaqla, digər məhkəmə və ya arbitraj tərəfindən ləğv edilə, dəyişdirilə və ya etibarsız hesab edilə bilməz.*

**AUDİT 2023, 4 (42), səh. 118-125.**
**AUDIT 2023, 4 (42), pp. 118-125.**
**АУДИТ 2023, 4 (42), стр. 118-125.**

*Mübahisələrin həlli qurumlarının müstəsna yurisdiksiyasına aid edilən işlər istisna olmaqla, Azərbaycan Respublikasının məhkəmələri tərəfindən qəbul edilmiş qərarlar Ələt azad iqtisadi zonasında icra olunmalıdır.*

Bu təklifin arqumentasiyası ondan ibarətdir ki, "Ələt azad iqtisadi zonası haqqında" 18 may 2018-ci il tarixli Qanunun 26.2-ci, 26.3-cü, 27.2-ci maddələri ilə müvafiq Azad Zona ərazisində Azərbaycan Respublikasının məhkəmələrinin səlahiyyətləri ilə əlaqədar müəyyən müddəalar nəzərdə tutulmuşdur. Hesab edirik ki, "Məhkəmələr və hakimlər haqqında" Qanun müvafiq sferanı nizamlayan əsas sahəvi qanun olduğu üçün məhkəmələrin səlahiyyətləri və Ələt azad iqtisadi zonasında Azərbaycan Respublikasının məhkəmələrinin səlahiyyət hüdudları məhz "Məhkəmələr və hakimlər haqqında" Qanunda təklif edilən maddə modeli vasitəsilə tənzim edilməlidir.

Daha sonra təklif edilir ki, baxılan Qanunun 3-cü maddəsinin birinci hissəsində *"məhkəmə nəzarətinin"* sözləri *"xüsusi icraatların"* sözləri ilə əvəz edilsin. Hazırda baxılan Qanunun 3-cü maddəsinin birinci hissəsində qanunverici orqan yalnız ədalət mühakiməsinin və məhkəmə nəzarətinin adını çəkmişdir. Bununla belə, məlumdur ki, məhkəmə nəzarəti cinayət mühakimə icraatında həyata keçirilən xüsusi icraatlardan yalnız biridir. Belə ki, Cinayət-Prosessual Məcəllənin "Xüsusi icraatlar" adlanan XI Bölməsinin sisteminə nəzər saldıqda, aşkar görünür ki, məhkəmə nəzarəti cinayət mühakimə icraatında həyata keçirilən xüsusi icraatlardan yalnız və yalnız biridir (Məhkəmə nəzarətinin həyata keçirilməsi – CPM-in LII Fəsli) və cinayət mühakimə icraatında məhkəmə nəzarətindən başqa da xüsusi icraatlar mövcuddur ki, onların da həyata keçirilməsində məhkəmələr bilavasitə iştirak edirlər [2, s. 82]. Bundan başqa, nəzərə almaq lazımdır ki, Mülki-Prosessual Məcəllənin 305-ci maddəsi də məhkəmənin xüsusi icraat qaydasında baxdığı işlərin dairəsini müəyyən edir. Belə olan təqdirdə, baxılan Qanunun 3-cü maddəsinin birinci hissəsinin cari redaksiyasında ədalət mühakiməsi ilə yanaşı, xüsusi icraatlardan yalnız məhkəmə nəzarətinin adının çəkilməsi və digər xüsusi icraatların üstündən sükutla keçilməsi məntiqsizdir və hüquqi qeyri-müəyyənlik yaradır.

Aparılan təhlillərin davamı olaraq, təklif edilir ki, baxılan Qanunun 4-cü maddəsinin birinci hissəsində *"kassasiya"* sözündən əvvəlki *"və"* bağlayıcısı *","* (vergül) işarəsi ilə əvəz edilsin, *"kassasiya"* sözündən sonra isə, *"və əlavə kassasiya"* sözləri əlavə edilsin. Hazırda baxılan Qanunun 4-cü maddəsinin birinci hissəsində əlavə kassasiya instansiyasının adı çəkilmir. Halbuki, Cinayət-Prosessual Məcəllənin XLIX Fəsli bütövlükdə əlavə kassasiya icraatının nizamlanmasına həsr olunmuşdur (maddələr 421-427). Eləcə də, Mülki-Prosessual Məcəllənin 44-cü Fəsli bütövlükdə əlavə kassasiya qaydasında icraatın nizamlanmasına həsr edilmişdir (maddələr 422-430). Aşkardır ki, əlavə kassasiya qaydasında icraat ədalət mühakiməsinin ayrılmaz tərkib hissəsidir və bu səbəbdən, həmin icraat növü də Qanunun 4-cü maddəsinin birinci hissəsində öz əksini tapmalıdır.

Tərəfimizdən irəli sürülən növbəti təklifə əsasən, baxılan Qanunun 4-cü maddəsinin ikinci hissəsi aşağıdakı yeni redaksiyada verilməlidir:

*Azərbaycan Respublikasının məhkəmələrində işlərə qanunla nəzərdə tutulmuş hallarda və qaydada birinci instansiya məhkəmələrində hakim tərəfindən təkbaşına, yaxud üç hakimdən ibarət kollegial tərkibdə, apellyasiya instansiyası məhkəməsində üç hakimdən*

**AUDİT 2023, 4 (42), səh. 118-125.**
**AUDIT 2023, 4 (42), pp. 118-125.**
**АУДИТ 2023, 4 (42), стр. 118-125.**

*ibarət kollegial tərkibdə, kassasiya instansiyası məhkəməsində üç və ya daha çox hakimdən ibarət kollegial tərkibdə, əlavə kassasiya instansiyası məhkəməsində Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumundan ibarət tərkibdə baxılır.*

Çünki baxılan Qanunun 4-cü maddəsinin ikinci hissəsinin qüvvədə olan cari redaksiyasından belə çıxır ki, apellyasiya instansiyası məhkəməsində də işlərə üç və ya daha çox hakimdən ibarət tərkibdə baxıla bilər. Halbuki, qüvvədə olan prosessual qanunvericilikdə apellyasiya instansiyası məhkəməsində işlərə üç hakimdən daha çox hakimdən ibarət tərkibdə baxılmasının heç bir ümumi və ya istisna halı nəzərdə tutulmur (bax: Mülki-Prosessual Məcəllənin 12.2-ci maddəsi; Cinayət-Prosessual Məcəllənin 78.4-cü maddəsi). Bundan əlavə, Qanunun 4-cü maddəsinin ikinci hissəsində əlavə kassasiya instansiyası məhkəməsində işlərə hansı tətkibdə baxılması məsələsinə aydınlıq gətirilməmişdir.

Təklif edilir ki, baxılan Qanunun 4-cü maddəsinin dördüncü hissəsinə aşağıdakı redaksiyada yeni cümlə əlavə edilsin:

*Qanunla müəyyən edilmiş hallarda məhkəmə iclaslarının fasiləsiz audio və ya video-audio yazısı aparılmalıdır.*

Hazırda baxılan Qanunun 4-cü maddəsinin dördüncü hissəsində məhkəmə iclaslarının gedişatının fasiləsiz audio, yaxud video-audio yazısının aparılması haqqında tələb nəzərdə tutulmamışdır. Halbuki, sahəvi prosessual qanunvericiliyin, məsələn, Cinayət-Prosessual Məcəllənin 51.6-1-ci maddəsinin, yaxud Mülki-Prosessual Məcəllənin 272.4-1-ci maddəsinin öyrənilməsi ona dəlalət edir ki, təklif edilən redaksiyada bir müddəa Məhkəmələr və hakimlər haqqında Qanunda da təsbit edilməlidir.

Belə bir təklif irəli sürülür ki, baxılan Qanunun 5-ci maddəsinin birinci hissəsində *"qərardadlar"* sözündən sonra *"xüsusi qərarlar, xüsusi qərardadlar"* sözləri əlavə edisin. Hazırda baxılan Qanunun 5-ci maddəsinin birinci hissəsində məhkəmələr tərəfindən baxılmış işlər üzrə çıxarıla biləcək qərarların sistemində xüsusi qərarlar və xüsusi qərardadlar göstərilməmişdir. Halbuki, xüsusi qərarlar və xüsusi qərardadlar məhkəmə qərarlarının özünəməxsus növü olub, qanunla müstəqil şəkildə nizamlanan prosessual-hüquqi formaya malik prosessual aktlardır. Xüsusi qərarlar və xüsusi qərardadlar məhkəmənin digər prosessual qərarlarından qəbul edilməsi əsaslarına, səbəblərinə və hüquqi nəticələrinə görə ciddi şəkildə seçilir, odur ki, xüsusi qərarlar və xüsusi qərardadlar bütün digər qərar növlərindən fərqləndirilməlidir. Belə ki, Mülki-Prosessual Məcəllənin 265.4, 265.5, 394.1, 394.2, 421-2.1, 421-2.2, 438-1.1, 438-1.2-ci maddələri mülki mühakimə icraatında xüsusi qərardadların çıxarılmasına dair müddəaları, Cinayət-Prosessual Məcəllənin 65.5, 300.3, 307, 318.3, 346.1.23, 355, 356.7, 391.10, 398.2, 406, 419.14, 419.15, 427.10, 427.11-ci maddələri isə cinayət mühakimə icraatında xüsusi qərarların çıxarılmasına dair müddəaları dəqiqliklə nizamlayır. Odur ki, məhkəmələrin xüsusi qərarları və xüsusi qərardadları baxılan Qanunun 5-ci maddəsinin birinci hissəsində məhkəmələr tərəfindən baxılmış işlər üzrə çıxarıla biləcək qərarların sistemində ayrıca göstərilməlidir.

Təklif edilir ki, baxılan Qanunun 5-ci maddəsinə aşağıdakı redaksiyada yeni ikinci hissə əlavə edilsin, hazırkı ikinci, üçüncü və dördüncü hissələr isə, müvafiq olaraq, üçüncü, dördüncü və beşinci hissələr hesab edilsin:

*Məhkəmələrin qərarları qanunla müəyyən edilmiş hallarda və qaydada hakimlər*

**AUDİT 2023, 4 (42), səh. 118-125.**
**AUDIT 2023, 4 (42), pp. 118-125.**
**АУДИТ 2023, 4 (42), стр. 118-125.**

*tərəfindən yerində müşavirə aparılmaqla və ya müşavirə otağında müzakirə edildikdən sonra, o cümlədən, məhkəmə iclasının protokoluna daxil edilməklə yerində və ya müşavirə otağında ayrıca sənədlər şəklində tərtib edilməklə çıxarılır.*

Hazırda baxılan Qanunun 5-ci maddəsində məhkəmələr tərəfindən qəbul edilən qərarların növləri sadalansa da, bu qərarların qəbul edilmə forması haqqında müddəa nəzərdə tutulmamışdır. İrəli sürülən təklifin məqsədi də məhz məhkəmələr tərəfindən qərarların qəbul edilməsinin forması haqqında müddəaların müvafiq sahəvi qanunvericilikdə təsbit edilməsidir.

Göstərilənlərlə yanaşı, baxılan Qanuna aşağıdakı redaksiyada yeni 5-1-ci maddənin əlavə edilməsini də məqsədəuyğun hesab edirik:

*Maddə 5-1. Məhkəmələrin digər aktları və onların hüquqi qüvvəsi:*

*Azərbaycan Respublikasının məhkəmələrinin hakimləri tərəfindən qərarlardan başqa, qanunla müəyyən edilmiş hallarda və qaydada icra vərəqələri, məhkəmə əmrləri, xüsusi rəylər və digər aktlar da qəbul edilir. Azərbaycan Respublikasının məhkəmələrinin hakimləri tərəfindən xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qərarları əsasında verilən icra vərəqələri və məhkəmə əmrləri hüquqi qüvvəsinə görə məhkəmə qərarlarına bərabər tutulan icra sənədləri sayılır. Məhkəmələrin icra sənədi hesab edilən digər aktlarının icra edilməsi məcburidir.*

Artıq qeyd edildiyi kimi, baxılan Qanunun cari redaksiyasının 5-ci maddəsində məhkəmələr tərəfindən qəbul edilən qərarların növləri sadalanmışdır. Lakin nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının məhkəmələri və hakimləri tərəfindən yalnız qərarlar deyil, qanunla müəyyən edilmiş hallarda və qaydada bir sıra digər aktlar da qəbul edilir. Məsələn, Mülki-Prosessual Məcəllənin 15.1-ci maddəsində birbaşa göstərilir ki, məhkəmə aktları qətnamə, qərardad, qərar və əmr formasında qəbul edlilir. Azərbaycan Respublikasının "İcra haqqında" Qanununun 6.1.1-ci və 6.1.2-ci maddələrinə əsasən, məhkəmələr tərəfindən xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qərarları əsasında verilən icra vərəqələri, eləcə də, məhkəmə əmrləri icra sənədləri hesab edilirlər. Xüsusi rəy növündə akta gəlincə, qeyd edilməlidir ki, İnzibati-Prosessual Məcəllənin 4.3-cü maddəsinə əsasən, hakim öz xüsusi rəyini yazılı şəkildə tərtib edə bilər, həmin rəy işə əlavə edilir; Mülki-Prosessual Məcəllənin 415-1.4-cü maddəsinə əsasən, hakim xüsusi rəyini yazıb işə əlavə edə bilər; Cinayət-Prosessual Məcəllənin 347.6-cı maddəsində də hakimin xüsusi rəy vermək hüququndan bəhs olunur və s.

Odur ki, irəli sürülən təklifin məqsədi Azərbaycan Respublikasının məhkəmələri və hakimləri tərəfindən qəbul edilən, lakin qərar olmayan digər aktların da sistemini müəyyən etmək və onların hüquqi qüvvəsinə dair müddəanı müvafiq sahəvi qanunvericilikdə təsbit etməkdir.

Nəhayət, təklif edilir ki, baxılan Qanunun 6-ci maddəsinin birinci hissəsində *"Dövlət gerbindən"* sözlərindən sonra *"Dövlət himnindən"* sözləri əlavə edilsin.

Bu təklifin arqumenti ondan ibarətdir ki, Konstitusiyanın 23-cü maddəsinin I hissəsinə əsasən, Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir. Nəzərə alsaq ki, Azərbaycanda dövlət hakimiyyəti hakimiyyətlərin bölgüsü prinsipi əsasında həyata keçirilir, hesab edirik ki, Azərbaycan Respublikasının dövlət rəmzləri hakimiyyətin hər üç qolunun mütləq rəmzləri kimi çıxış etməlidir.

**AUDİT 2023, 4 (42), səh. 118-125.**
**AUDIT 2023, 4 (42), pp. 118-125.**
**АУДИТ 2023, 4 (42), стр. 118-125.**

## YEKUN

Beləliklə, aparılmış araşdırmalar nəticəsində bu qənaətə gəlmək mümkündür ki, Azərbaycan Respublikasının "Məhkəmələr və hakimlər haqqında" Qanununun bir sıra müddəalarının təkmilləşdirilməsinə vacib zərurət mövcuddur. Təhlillər ona dəlalət edir ki, ilk növbədə, qeyd edilən Qanunun adı və məqsədi təkmilləşdirilməlidir, çünki Ümummilli Lider Heydər Əliyevin məhkəmə-hüquq siyasətinin və cənab Prezident İlham Əliyevin apardığı uğurlu və ardıcıl məhkəmə-hüquq islahatlarının nəticəsində Azərbaycan Respublikasında müstəqil məhkəmə hakimiyyəti artıq çoxdan yaranmışdır. Hazırda baxılan sahəvi qanunun məqsədləri müstəqil məhkəmə hakimiyyətinin yaradılması yox, artıq yaradılmış müstəqil məhkəmə hakimiyyətinin öz funksiyalarını səmərəli şəkildə həyata keçirilməsinin təmin edilməsi istiqamətində müəyyən edilməlidir. Bundan başqa, məqalədə əsaslandırılmışdır ki, həmin Qanunun Birinci bölməsinin adı *"Məhkəmə quruluşu"* kimi, I fəslinin adı isə *"Ümumi müddəalar"* kimi yeni redaksiyada verilsin. Məqalənin məzmununda baxılan Qanuna Ələt azad iqtisadi zonasında Azərbaycan Respublikasının məhkəmələrinin səlahiyyət hüdudları ilə bağlı normanın əlavə edilməli olmasının səbəbləri də göstərilmişdir. Ümumiyyətlə, məqalədə işlənib hazırlanmış bütün digər qanunvericilik təklifləri də "Məhkəmələr və hakimlər haqqında" Qanunun təkmilləşdirilməsinə xidmət edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Bayramov M.A. Azərbaycan Respublikasının məhkəmə hakimiyyəti. Dərs vəsaiti. Bakı: Qanun, 2004, 408 s.

2. Xəlilov F.Y. Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması üzrə icraat cinayət prosesində yeni xüsusi icraat növü kimi // Qanun, 2020, № 10 (312), s. 82-87.

3. Арановский К.В. Разделение властей как условие конституционной демократии // Журнал конституционного правосудия, 2012, № 6 (30), с. 16-21.

4. Пархоменко А.Г. Разделение властей в современной России: конституционная модель // Право и государство: теория и практика, 2012, № 11 (95), с. 13-19.

5. Соколов В.М. Форма правления и разделение властей: зарубежный опыт // Актуальные проблемы российского права, 2010, № 4 (17), с. 56-67.

6. Черкашина С.Л. Особенности зарубежного законодательства о судоустройстве. // Государственная власть и местное самоуправлениет, 2015, № 1, с. 59-64.

7. Daly T.G. The Alchemists: Questioning our Faith in Courts as Democracy-Builders. Cambridge University Press, 2018, 390 p.

8. Hazelton Morgan L., Hinkle Rachael. Persuading the Supreme Court: The Significance of Briefs in Judicial Decision-Making. University Press of Kansas, 2022, 228 p.

9. Neubauer David W., Fradella Henry F. America's Courts and the Criminal Justice System. 10th edition. Cengage Learning, 2010, 656 p.

10. Stahn Carsten. The Law and Practice of the International Criminal Court. Oxford University Press, 2015, 1441 p.

**AUDİT 2023, 4 (42), səh. 118-125.**
**AUDIT 2023, 4 (42), pp. 118-125.**
**АУДИТ 2023, 4 (42), стр. 118-125.**

*Shalala Shakir Hasanova,*
*Ph.D. (Law), Associate Professor,*
*Baku Business University,*
*E-mail:shelale.hasanova@gmail.com*
*© Sh.Sh. Hasanova, 2023*

## JUDGEMENTS ON THE IMPROVEMENT OF CERTAIN PROVISIONS OF THE LAW "ON COURTS AND JUDGES" OF THE REPUBLIC OF AZERBAIJAN

### A B S T R A C T

**The purpose of the research** – is to develop specific legislative proposals for improving some provisions of the Law of the Republic of Azerbaijan "On Courts and Judges."

**The methodology of the research** – is a set of methods such as critical thinking, systemic analysis and comparative jurisprudence.

**The practical importance of the research** – is that by executing the content of the article, the Milli Majlis of the Republic of Azerbaijan can improve the current legislation.

**The results of the research** – are reflected in the developed models of new articles of law and new editions of existing articles.

**The originality and scientific novelty of the research** – the originality of the study lies in the fact that it consists of previously unpublished author's ideas. The scientific novelty of the study is that the legislative proposals reflected in it are presented to the legal community of Azerbaijan for the first time.

**Key words:** judiciary, law, provisions, analysis, improvement, proposals, arguments.

*Гасанова Шалала Шакир кызы,*
*доктор философии по праву, доцент*
*Бакинский Университет Бизнеса,*
*E-mail: shelale.hasanova@gmail.com*
*© Гасанова Ш.Ш., 2023*

## СУЖДЕНИЯ О СОВЕРШЕНСТВОВАНИИ НЕКОТОРЫХ ПОЛОЖЕНИЙ ЗАКОНА «О СУДАХ И СУДЬЯХ» АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

### Р Е З Ю М Е

**Цель исследования** – заключается в разработке конкретных законодательных предложений по совершенствованию некоторых положений Закона Азербайджанской Республики «О судах и судьях».

**Методология исследования** – состоит из совокупности таких методов как критическое мышление, системный анализ и сравнительное правоведение.

**Практическая значимость исследования** – заключается в том, что используя содержание статьи, Милли Меджлис Азербайджанской Республики может совершенствовать действующее законодательство.

**Результаты исследования** – отражены в разработанных моделях новых статьей закона и новых редакциях действующих статей.

**Оригинальность и научная новизна исследования** – оригинальность исследования заключается в том, что оно состоит из ранее неопубликованных авторских идей. Научная новизна исследования заключается в том, что законодательные предложения, отраженные в нем, впервые представляются правовой общественности Азербайджана.

**Ключевые слова:** судебная власть, закон, положения, анализ, совершенствование, предложения, аргументы.

*Məqalə redaksiyaya daxil olmuşdur: 08.08.2023*
*Təkrar işləməyə göndərilmişdir: 20.08.2023*
*Çapa qəbul olunmuşdur: 01.10.2023*

*The date of the admission of the article to the editorial office: 08.08.2023*
*Send for reprocessing: 20.08.2023*
*Accepted for publication: 01.10.2023*

*Дата поступления статьи в редакцию: 08.08.2023*
*Отправлено на повторную обработку: 20.08.2023*
*Принято к печати: 01.10.2023*